*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**




AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 9 iyul 2014-cü il | № 52 (1869) | Qiyməti 25 qəpik


# Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsi keçirilmişdir

## Prezident İlham Əliyev müşavirədə iştirak etmiş və nitq söyləmişdir

***İyulun 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsi keçirilmişdir.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə iştirak etmişdir.

Müşavirəni açan xarici işlər naziri Elmar Məmmədyarov ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün də davam və inkişaf etdirilən uğurlu xarici siyasət strategiyasının Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun gündən-günə artması, dövlətimizin etibarlı tərəfdaş kimi tanınması, beynəlxalq təşkilatların fəal üzvü, habelə region və bütünlükdə beynəlxalq ictimaiyyət üçün əhəmiyyətli tədbir və layihələrin təşəbbüskarı olması ilə nəticələndiyini bildirdi.

Nazir diplomatik xidmət orqanları rəhbərlərinin son müşavirəsindən keçən müddətdə Xarici İşlər Nazirliyi sisteminin fəaliyyəti barədə məlumat verdi. Diqqətə çatdırdı ki, hazırda Azərbaycan Respublikasının xarici ölkələrdə 57 səfirliyi, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 baş konsulluğu, 7 təmsilçilik ofisi və 7 fəxri konsulluğu fəaliyyət göstərir. Respublikamızda isə 58 dövlətin səfirliyi, 4 baş konsulluq, 10 fəxri konsulluq və 20 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur. Xarici işlər naziri vurğuladı ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətin prioritet məsələsi olaraq qalmaqdadır. Nazir əminliklə bildirdi ki, dövlətimizin milli maraqlarının təmin olunması məqsədini güdən xarici siyasət kursunun həyata keçirilməsi ilə əlaqədar verilən tapşırıqların icrasının layiqincə təmin edilməsi üçün diplomatik xidmət orqanlarının əməkdaşları səy və bacarıqlarını əsirgəməyəcəklər.

Prezident İlham Əliyev müşavirədə nitq söylədi.

Dövlətimizin başçısı Azərbaycanın xarici siyasətinin öz prinsipiallığı və müstəqilliyi ilə seçildiyini dedi. Bildirdi ki, ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə xarici arenada öz sözümüzü deməyə, maraqlarımızı müdafiə etməyə imkanlar açmışdır. Prezident bu siyasətin beynəlxalq birlik tərəfindən də təqdirlə qarşılandığını, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayının artığını, Azərbaycanın özünü dünyada etibarlı dost və tərəfdaş kimi təsdiq etdiyini vurğuladı. Gənc müstəqil dövlət üçün BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimizi tarixi hadisə adlandıran dövlətimizin başçısı bildirdi ki, bu, ölkəmizin qısa müddətdə nə qədər böyük yol keçdiyini göstərdi. Azərbaycan iki il ərzində bu nüfuzlu təşkilatda beynəlxalq hüququ və ədaləti müdafiə etdi və bundan sonra da hər zaman müdafiə edəcəkdir. Beynəlxalq imicimizin çox müsbət olduğunu qeyd edən Prezident İlham Əliyev diplomatik orqanların uğurlu fəaliyyətinin bu amildə rolunu qeyd etdi.

Xarici siyasətlə bağlı əsas məsələnin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli olduğunu bildirən Prezident İlham Əliyev təəssüflə qeyd etdi ki, bu istiqamətdə nəticələr yoxdur. Dövlətimizin başçısı Azərbaycanın məsələni dinc yolla həll etmək istəyini bildirdi və qeyd etdi ki, bununla yanaşı, Ermənistanın qeyri-konstruktiv mövqeyi, eləcə də beynəlxalq hüququn işləməməsi və güc amilinin əsas rol oynaması məsələnin hərbi yolla həllini istisna etmir. Azərbaycan Prezidenti bu səbəbdən də ordu quruculuğumuzla bağlı aparılan ardıcıl siyasətimizin düzgün olduğunu vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, diplomatların fəaliyyəti ilk növbədə Qarabağla, o cümlədən İrəvan xanlığı ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasına istiqamətlənməlidir. Prezident İlham Əliyev bir daha vurğuladı ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranması qətiyyən mümkün deyil və Azərbaycan buna heç vaxt imkan verməyəcəkdir.

Xarici siyasətimizlə bağlı əsas istiqamətlərdən danışarkən Prezident İlham Əliyev Ermənistan istisna olmaqla, qonşu ölkələrlə münasibətlərin sağlam, bərabərhüquqlu münasibətlər və möhkəm zəmin üzərində qurulduğunu, həmin ölkələrlə əlaqələrin ikitərəfli və çoxtərəfli formatlarda təmin edildiyini dedi. Daim axtarışda olub yeni əməkdaşlıq formaları barədə fikirləşməyin vacibliyini qeyd edən Prezident İlham Əliyev müsəlman ölkələri ilə əlaqələrdən danışdı və qeyd etdi ki, Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsinə öz töhfəsini verir.

Avropa ölkələrinin ənənəvi tərəfdaşlarımız olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev ikitərəfli əlaqələrin inkişafı üçün gözəl imkanların olduğunu söylədi, Asiya dövlətləri ilə də əməkdaşlığın son illərdə sürətlə inkişaf etdiyini bildirdi.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlarla əməkdaşlıqdan da danışdı, diaspor təşkilatları ilə səfirliklərimizin birgə fəaliyyətinin önəmini qeyd etdi. Prezident İlham Əliyev, həmçinin enerji diplomatiyasındakı uğurlara diqqəti cəlb etdi, bu imkanların xarici siyasətimizə müsbət təsir göstərdiyini dedi. Bildirdi ki, ölkəmizin bütün istiqamətlərdə düşünülmüş konseptual yanaşmaya söykənən siyasəti vardır və uğurlarımız buna əsaslanır.

Azərbaycan Prezidenti diplomatlara fəaliyyətlərində yeni uğurlar arzuladı.

**AzərTAc-ın materialları əsasında**



**Bir qrup sülhməramlı əsgər Əfqanıstana göndərilib**

2-ci səhifədə



**Hazırlıq yüksək olanda...**

3-cü səhifədə



**Topçular təlimdə bacarıqlarını nümayiş etdirdilər**

3-cü səhifədə



**Murovdağ döyüşçülərinin şərəfinə ucaldılmış xatirə abidəsinin açılışı olmuşdur**

4-cü səhifədə



**Əsgərlər üçün keyfiyyətli yeməklər hazırlanır**

4-cü səhifədə

# Astanada MDB-yə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib

***İyulun 4-də Qazaxıstanın paytaxtı Astanada MDB-yə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib.***

Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirak etdiyi iclasda iyirmi məsələ, o cümlədən hərbi əməkdaşlığın gücləndirilməsi və onun prioritetlərinin müəyyənləşdirilməsi, üzv ölkələr arasında əlaqələrin genişləndirilməsi və s. müzakirə olunmuşdur. Həmçinin birlik ölkələri arasında uçuş təhlükəsizliyinin təmin edilməsi, minalardan təmizlənmə, ərazilərdə kimyəvi və bioloji qiymətləndirilmənin həyata keçirilməsi yolları barədə fikir mübadiləsi aparılmışdır.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçıları ilə görüşmüşdür.

Prezident Nursultan Nazarbayev qeyri-sabit geosiyasi və dünya iqtisadiyyatının böhranlı vəziyyəti şəraitində Qazaxıstanın qonşu ölkələrlə sıx hərbi əməkdaşlıqda maraqlı olduğunu qeyd edərək demişdir: "Dövlətlərimizin əldə etdikləri birgə təcrübə, eləcə də hərbi sahədə ümumi təhsil, eyni tipli silahlarla təchizat, habelə xarici sərhədlərin mühafizəsinin ümumi məkanı sıx əlaqələrin gələcəkdə də qorunub saxlanmasından xəbər verir".

Müdafiə və hərbi-texniki əməkdaşlığın inkişafının vacibliyini vurğulayan Qazaxıstan Prezidenti demişdir: "Hazırda biz hərbi texnikanın bəzi hissələrinin digər dövlətlərlə birgə istehsalının Qazaxıstana köçürülməsi üzərində düşünürük. Bununla əlaqədar biz müvafiq birgə müəssisələrin yaradılmasını tamamilə dəstəkləyəcəyik. Qonşu ölkələrin iqtisadi və daxili siyasi vəziyyəti Qazaxıstana təsir edir. Ona görə biz qonşularımızın, müttəfiqlərimizin birlik çərçivəsində də uğurla inkişaf etmələrini səmimi qəlbdən arzulayırıq".

Prezident Nursultan Nazarbayev Müdafiə nazirlərini etimadı qoruyub saxlamağa çağırmış, iclas iştirakçılarına uğurlu və səmərəli iş arzulamışdır.

**AzərTAc**

# Vaşinqtonda NATO-Azərbaycan münasibətlərinə həsr olunmuş tədbir keçirilmişdir

Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmasının 20-ci ildönümünə təsadüf edən tədbiri Atlantik Şuranın prezidenti Fred Kempe açaraq rəsmi Bakının Alyansın tərəfdaşı qismində tutduğu mühüm mövqedən danışmışdır.

Azərbaycanın NATO yanında nümayəndəliyinin rəhbəri, səfir Xəzər İbrahim NATO-Azərbaycan münasibətlərinin ötən 20 ildə keçdiyi tarixi yola nəzər salmış, əməkdaşlığın inkişaf etdiyini söyləmişdir. O, Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə sonuncu səfəri zamanı NATO-nun mənzil qərargahında bu münasibətlərin strateji xarakter alması ilə bağlı fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. X.İbrahim ötən dövrdə Azərbaycanın NATO-dan yardım qəbul edən ölkədən təşkilatın müxtəlif istiqamətlərdə fəaliyyətinə töhfə verən ölkəyə çevrildiyini vurğulamış, bu kontekstdə rəsmi Bakının Əfqanıstandakı əməliyyatlara verdiyi dəstək barədə danışmışdır. O, NATO-Azərbaycan münasibətlərinin beynəlxalq hüququn prinsiplərinə söykəndiyini bildirmiş, Alyansın zirvə toplantılarının yekun sənədlərində Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə ifadə edilən birmənalı dəstəyi vurğulamışdır.

ABŞ dövlət katibinin köməkçisinin müavini Erik Rubin NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramında Azərbaycanın iştirakının uğurlu nəticələrindən danışmışdır. E.Rubin Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı NATO ilə əməkdaşlığın 20 illiyini əhatə edən müzakirələrin aparıldığını xatırlatmışdır. O, ölkəmizin Alyans ilə əməkdaşlığının müxtəlif istiqamətlərində əldə olunmuş nailiyyətləri qeyd etmişdir. E.Rubin Əfqanıstan ilə əlaqənin təmin edilməsində Azərbaycanın Şimal Nəqliyyat Paylayıcısında tutduğu mühüm yeri vurğulamış və ölkəmizin bu sahədə nümayiş etdirdiyi əməkdaşlığı yüksək qiymətləndirmişdir.

Corctaun Universitetinin professoru Brenda Şeyfer Azərbaycanın təhlükəsizlik sahəsində NATO ilə əməkdaşlığı ilə yanaşı, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən bəhs etmişdir. O, Cənubi Qafqazdakı mövcud münaqişələrin regional proseslərə mənfi təsir göstərdiyini söyləmiş, ABŞ-ın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində iştirakından danışmışdır.

**AzərTAc**

AZƏRBAYCAN ORDUSU

# Cəbhə bölgəsində irimiqyaslı təlimlər keçirilir



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə keçirilən birgə əməliyyat-taktiki təlimlərin davamı olaraq iyulun 7-dən Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrinin cəbhə bölgəsində irimiqyaslı təlimləri keçirilir.**



Təlimlərin yeni mərhələsində birlik, birləşmə və hərbi hissələrin döyüş hazırlığı, qoşunların yürüş qabiliyyəti, döyüş tətbiqi imkanları, həmçinin şəraitə və qabaqcadan hazırlanmamış əraziyə uyğun olaraq döyüş elementlərinin qarşılıqlı əlaqələndirilməsi məsələlərinin öyrənilməsi və praktiki istifadəsi yerinə yetirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bilavasitə rəhbərliyi ilə keçirilən təlimlərə 10.000 nəfərdən artıq şəxsi heyət, 300-dən çox zirehli texnika, raket-artilleriya qoşunlarının 100-dən çox qurğusu, 20-dək aviasiya və 15-dən çox hava hücumundan müdafiə sistemləri cəlb olunub.

Təlimlərdə zirehli texnikalardan, artilleriya qurğularından, zenit-raket komplekslərindən, müxtəlif çaplı silahlardan, təyyarə və helikopterlərdən praktiki döyüş atışları icra edilir.



Müdafiə Nazirliyinin sifarişinə uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və şöbələri tərəfindən 3000 nəfərdən artıq ehtiyatda olan hərbi vəzifəli təlimlərə çağırılıb, onların hərbi qeydiyyat məsələləri ilə bağlı tədbirlər təşkil edilib, səfərbərlik hazırlığı və səfərbərlik üzrə çağırış dövrü üçün planlar dəqiqləşdirilib, yaradılması nəzərdə tutulan yeni hərbi hissələrin şəxsi heyətlə komplektləşdirilməsi və çatışmayan heyətlə tam komplektləşdirilməsi qarşılıqlı şəkildə və yüksək səviyyədə həyata keçirilib. Eyni zamanda, təlimlərə ehtiyatdan cəlb edilmiş hərbi vəzifəlilərlə döyüş hazırlığı, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının səviyyəsinin yüksəldilməsi, silah və hərbi texnikadan istifadə qaydaları mövzusunda təlim-məşqlər keçirilir.

Təlimlərə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə iyulun 10-da Bakı şəhərində təlimlərin komandanlıq heyətinin və əvvəlki mərhələlərdə təlimlərdə iştirak edən mərkəzi tabeçilikdə olan hərbi hissələrin komandirlərinin ümumi toplantısı ilə yekun vurulacaqdır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

İyulun 6-dan 15-dək Paris şəhərində (Fransa) Birinci Dünya müharibəsinin 100 illiyi, Fransanın milli gününə həsr olunmuş parad; Azərbaycan-Türkiyə ikitərəfli əməkdaşlıq planına əsasən, iyulun 7-dən 11-dək Marmaris şəhərində (Türkiyə) beynəlxalq gəmi və liman təhlükəsizlik kursu; Azərbaycan-Almaniya ikitərəfli əməkdaşlıq planına əsasən, iyulun 8-dən 10-dək Leer şəhərində (Almaniya) tibb xidməti əməliyyatları üzrə işçi görüşü; Bakı şəhərində silahlara nəzarət üzrə ekspert görüşü; iyulun 9-dan 12-dək Minsk şəhərində (Belarus) "MİLEX-14" sərgisi keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 8-də Tovuz rayonunun Əlibəyli kəndinin yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılmışdır.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçləri Yevgeni Şarov və Piter Svedberq, təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Jiri Aberle keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

**7 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 19 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Tərtər rayonunun Göyarx kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

**8 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 33 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində və Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Baş Qərvənd, Kəngərli, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Qaraxanbəyli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Bir qrup sülhməramlı əsgər Əfqanıstana göndərilib

***İyulun 8-də Bakıdakı "N " hərbi hissəsində 30 nəfərdən ibarət şəxsi heyətin Əfqanıstandakı sülhməramlı qüvvələrə göndərilməsi ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə polkovnik-leytenant Şahin Xankşiyev açıb. Şəxsi heyətə sülhməramlı qüvvələr haqqında geniş məlumat verən zabit bildirib ki, 1994-cü ildən Azərbaycan Silahlı Qüvvələri NATO ilə "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlıq edir.***



Zabitin sözlərinə görə, 1999-cu ilin sentyabrından sülhməramlı bölmələrimiz dünyanın münaqişə bölgələrində beynəlxalq sülhməramlı qüvvələr tərkibində xidmət ediblər. "2002-ci ildən isə Azərbaycan hərbçiləri Əfqanıstandakı beynəlxalq sülhyaratma əməliyyatlarına dəstək verirlər. Hazırda 94 hərbçimiz bu bölgədə sülhməramlı qüvvələrdə xidmət edir".

O bildirib ki, Azərbaycan hərbçiləri Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin əməliyyatlarında Türkiyə kontingentinin tərkibində fəaliyyət göstərirlər.

Kontingentin tərkibində iki mühəndis istehkamçı Türkiyə Silahlı Qüvvələrinə, iki hərbi həkim isə sülhməramlı kontingentə və yerli əhaliyə tibbi xidmət göstərir.

Zabit əsgərlərimizin diqqətinə sülhməramlı əməliyyatın klassik bir döyüş olmadığını və bu işdə daha diqqətli və məsuliyyətli olmağın vacibliyini tövsiyə edib.

Polkovnik-leytenant Teymur Məmmədov da iştirakçılarla fikirlərini bölüşüb. O, çıxışında əsas məqamı əsgərlərimizin üzərinə cəmləyib. Onların fəaliyyətlərindən və döyüş uğurlarından danışan polkovnik-leytenant yola düşən əsgərlərə uğurlar arzulayıb. Onlara ürəkdən inandığını deyən T.Məmmədov əsgərlərimizə ölkə sərhədlərindən kənarda nizam-intizamlı olmağı və Azərbaycanı nümunəvi ölkə kimi tanıtmağı tövsiyə edib.



Əfqanıstana yollanan zabit, gizir və əsgərlərimiz sülhməramlı qüvvələrdə xidmətə başladıqları üçün qürur hissi keçirdiklərini bildirdilər. "Vətəndən uzaqlarda hər bir addımımız Azərbaycanı təmsil edəcək. Hər bir uğurumuz bayrağımızı göylərə qaldıracaq", - dedi döyüşçülərimiz.

Tədbirin sonunda polkovnik-leytenant Teymur Məmmədov Əfqanıstana göndərilən şəxsi heyətin hər biri ilə görüşüb, onlara bu şərəfli və məsuliyyətli vəzifədə möhkəm iradə və dözüm arzuladı.

**Leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**

# Sağlamlığın qorunması daha məqsədəuyğundur

***Bəzi kütləvi informasiya vasitələrində oruc tutan hərbi qulluqçulara guya Müdafiə Nazirliyi tərəfindən qadağa qoyulması barədə məlumatlar yayılıb.***

Müdafiə Nazirliyinin bu məsələyə münasibəti ondan ibarətdir ki, hərbi hissələrin komandanlığı valideynləri, ictimaiyyətin nümayəndələrini, din xadimlərini, ağsaqqalları hərbi hissələrə dəvət edərək məsləhətləşmələr aparır və onlar hərbi xidmətin spesifikası, xidmət dövrü ərzində oruc tutulmasının tibbi, fiziki, psixoloji baxımdan orqanizmə təsiri və nəticələri barədə hərbi qulluqçular arasında maarifləndirici işin həyata keçirilməsinə cəlb edilirlər.

Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrin əksəriyyətinin ağır iqlim şəraitində, relyefi müxtəlif və mürəkkəb olan ərazilərdə - yüksək dağlıq, düzənlik-ovalıq şəraitində, düşmənlə üz-üzə təmas xəttində, daim səngərlərdə, postlarda yerləşməsi, daim döyüş növbətçiliyi çəkməsi dini ayinlərin icrasına çətinlik yaradan əsas amil kimi nəzərə alınmalıdır.

Diqqət yetiriləsi məqamlardan biri də odur ki, hazırda vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması həyata keçirilir. Bu dövrdə ailə mühitindən ayrılaraq, ordu sıralarına yeni gələn gənclərin fiziki, mənəvi-psixoloji adaptasiya keçməsi, ciddi surətdə əməl olunan günün nizam qaydalarına, həmçinin orqanizmə təsir edən digər amillərə uyğunlaşması vacibdir. Bu müddətdə həm iqlim şəraiti, həm də ailədən ayrılaraq tamamilə başqa mühitə düşməsi, o cümlədən yeni kollektivdə ünsiyyət qurması kimi fizioloji və mənəvi-psixoloji amillərin gənclərimizə təsiri də mövcuddur.

Müdafiə Nazirliyinin qarşısında duran ən əsas vəzifələrdən biri də döyüş növbətçiliyinin yerinə yetirilməsi ilə əlaqədar verilən döyüş tapşırıqlarını vaxtında, dəqiq, düzgün icra edən, silah və texnikanı dərindən bilən, eyni zamanda düşməni məhv etməyə hazır olan, fiziki cəhətdən sağlam, çevik, çətinlikləri məharətlə dəf edən, dözümlü və döyüş əzmi yüksək olan hərbi qulluqçular yetişdirməkdir.

Məhz bu səbəbdən də bu incə və həssas məsələyə qadağa deyil, hərbi xidmətin xüsusiyyətləri nəzərə alınmaqla, hərbi qulluqçuların sağlamlığının qorunması, təhlükəsizlik və yüksək döyüş hazırlığı prizmasından baxılması məqsədəuyğundur.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Assambleyada çətin vəziyyətlə üzləşdiklərini etiraf etmişdir

Fransada erməni lobbisinin vəsaiti hesabına gündəlik nəşr olunan "Ermənistan xəbərləri" jurnalının 7 iyul tarixli nömrəsində "Avropa Şurası Parlament Assambleyasında işləmək getdikcə çətinləşir" sərlövhəli məqalə dərc edilmişdir.

Məqalədə Ermənistanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin üzvü Naira Zöhrabyanın təmsil etdiyi nümayəndə heyətinin qurumdakı fəaliyyətinə dair fikirləri yer almışdır.

AŞPA sessiyalarında Azərbaycanla bağlı hər hansı məsələnin müzakirəsində ölkəmizə qara yaxmaq və onun beynəlxalq aləmdəki nüfuzuna kölgə salmaq üçün dəridən-qabıqdan çıxan N.Zöhrabyan Azərbaycan nümayəndə heyətinin fəallığının və əsaslı faktlarla Ermənistanın işğalçılıq siyasətini avropalı deputatlara çatdırmaq istiqamətində apardığı təbliğatın Assambleyada Ermənistan nümayəndə heyətinin işini getdikcə çətinləşdirdiyini bildirmişdir.

Yeddi il ərzində AŞPA-dakı Ermənistan nümayəndə heyətinin üzvü olan N.Zöhrabyan etiraf etməyə məcbur olmuşdur ki, Azərbaycan nümayəndə heyəti Ermənistana qarşı sanksiyalar tətbiq edilməsinə və qətnamə layihələrinin qəbul olunmasına hər vəchlə təşəbbüs göstərir. Bu isə özlüyündə erməni nümayəndə heyətinin fəaliyyətinə ciddi problem yaradır. Erməni deputat AŞPA-da təmsil etdiyi nümayəndə heyəti üçün çıxılmaz vəziyyətin yarandığını və işləməyin getdikcə çətinləşdiyini qeyd etmişdir.



# Milli Qəhrəmanla görüş keçirilmişdir

***Azərbaycanın ərazi bütövlüyünün qorunması, işğal olunmuş ərazilərin düşmən tapdağından azad edilməsi və dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində xidmətlərinə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş ehtiyatda olan polkovnik-leytenant Məhəmməd Həsənov bir neçə gündür ki, Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən keçirilən hərbi vətənpərvərlik həftəsi çərçivəsində tədbirlərdə yaxından iştirak edir.***

Bu gün o, ön səngərlərdə olmuş və Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanan döyüşçülərlə görüşmüşdür. Zabit, gizir və əsgərlər Milli Qəhrəmanın xatirələrini dinləmiş və bu bölgədə gedən qanlı döyüşlərdə Azərbaycan oğullarının göstərdikləri rəşadət və igidliklər barədə söhbətinə maraqla qulaq asmışlar. Ehtiyatda olan polkovnik-leytenant gənc əsgərlərə məsləhətlər vermiş, onların çoxsaylı suallarını cavablandırmışdır.

Ön xətdəki əsgərlərin xidmət şəraiti, sosial problemləri ilə yaxından tanış olan Milli Qəhrəman ordumuzun bugünkü inkişafından məmnun olduğunu qeyd etmiş və hərbi hissələrin ictimaiyyət nümayəndələrinin, kütləvi informasiya təşkilatlarının, əsgər valideynlərinin üzünə açıq olduğunu yüksək qiymətləndirmişdir. Əsgər və zabitlərin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olması qonağı sevindirmişdir.

Əsgərlərdən ayrılarkən qəhrəman etiraf etmişdir ki, həqiqətən bir çox ölkələrin qibtə edə biləcəyi, müasir silah, sursat və texnika ilə təchiz olunmuş Silahlı Qüvvələrimiz vardır və o, Ali Baş Komandanın əmrlərinə hər an hazırdır.

**"Azərbaycan Ordusu"**

***Cəbhə bölgəsində yerləşən hərbi hissəyə lap ertədən gəlib çatmışdıq. Qərargahda ilk olaraq zabit Klos Abbasovla görüşdük. O söhbət zamanı şəxsi heyətin döyüş hazırlığından danışdı. Bildirdi ki, hərbi hissənin zabit və əsgərləri düşmənin bütün həmlə və hücumlarının qarşısını almağa həmişə hazırdırlar.***



# Hazırlıq yüksək olanda...

Ön xəttə yola düşməyə hazırlaşdığımız ərəfədə zabit Qafqaz Zeynalovla görüşüb söhbət edə bildik. O dedi ki, şəxsi heyətin döyüş ovqatı, döyüş ruhu yüksək səviyyədədir. Bir neçə gün əvvəl erməni işğalçıları müxtəlif istiqamətlərdən atəşkəs rejimini pozmağa cəhd göstərdilər. Mövqelərində ayıq-sayıq dayanmış zabit və əsgərlərimiz dəqiq atəş zərbələri ilə düşməni susduraraq geri oturtdular. Bütün bunlar onu göstərir ki, döyüşçülərimiz hər an torpaqlarımızı həm müdafiə, həm də düşmən tapdağından azad etməyə qadirdirlər.

Hazırlıq işlərini başa çatdırandan sonra kapitan Amil Rüstəmovla birlikdə ön xəttə yola düşdük. Qarşılaşdığımız zabit və əsgərlər çöl məşğələsi keçməyə gedirdilər.

- Təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət müntəzəm olaraq dərs və məşğələlər keçir, - dedi kapitan Amin Rüstəmov. - Məşğələdən-məşğələyə əsgərlərin döyüş hazırlığı artır. Onlar daha hazırlıqlı və çevik olurlar. İnanıram ki, torpaqlarımızın müdafiəsində dayanan və döyüş hazırlığı yüksək səviyyədə olan hərbçilər hər an düşmən hücumlarını dəf etməyə hazırdırlar.

Xeyli yol qət edib yaşıllıqlar qoynunda məşğələ keçən minaatanların yanına çatdıq. Dərsin gərgin anları idi. Əsgərlər cəld və çevik hərəkətlərlə minaatan qurğusunu "döyüş" və "səfər" vəziyyətinə gətirirdilər. Bizi burada heyət nəfərlərinə müxtəlif komandalar verən baş leytenant Bəhruz Əzimov qarşıladı. Söhbət zamanı öyrəndim ki, Bəhruz xeyli müddətdir ki, ön xətdə xidmət edir.

- Müharibə şəraitində yaşadığımız bu günlərdə biz zabitlərin çiyinlərinə mühüm vəzifələr düşür, - deyə baş leytenant Bəhruz Əzimov bildirdi. - Əsas vəzifələrimizdən biri də ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə hərbi bilik və döyüş vərdişlərini öyrətməkdir. Üzərimizə düşən tapşırıqları yerinə yetirmək üçün xidmətimizə məsuliyyətlə yanaşırıq. Çalışırıq ki, məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edərək heyət nəfərlərinə minaatan qurğusunun sirlərini daha da dərindən aşılayaq.

Bu gün təlim keçib minaatan qurğusunun sirlərini öyrənən əsgərlər ordu sıralarına bir müddət əvvəl çağırılıblar. Amma qısa müddət ərzində xeyli bilik və vərdişlərə yiyələniblər.

Zabit B.Əzimov daha sonra söhbətinə davam edərək xidmətdə fərqlənən əsgərlərdən də söz açdı. Bildirdi ki, heyət nəfərləri, bir qayda olaraq, hamısı tapşırıqların öhdəsindən gəlir. Hər kəs təlimlərdə hədəfi dəqiq vuraraq hazırlığının yüksək olduğunu nümayiş etdirir. Belə əsgərlərdən Nasim Rəhmanlı, Mirnaib Ağazadə, Nasir Məhərrəmov, Məzahir Müslümov və başqaları həmişə verilən tapşırıqların öhdəsindən bacarıqla gəlir, təlim və dərslərin hər dəqiqəsindən səmərəli istifadə edərək biliklərini artırırlar. Bir müddətdən sonra şəxsi heyət yenə də təlimə yollanacaq. İnanıram ki, həmişə olduğu kimi, bu dəfə də əsgərlərimiz yaxşı nəticə göstərərək uğur qazanacaqlar.

Bacarıqlı və vətənpərvər əsgərlərdən xoş təəssüratlarla ayrıldıq. Onlar isə məşğələlərini davam etdirirdilər. Budur, baş leytenant Bəhruz Əzimovun əmr və tapşırıqlarını yerinə yetirən əsgərlər cəld hərəkətlərlə minaatan qurğusunu "səfər" və "döyüş" vəziyyətinə gətirirlər. Təbiidir ki, döyüş hazırlığı yüksək olan əsgərləri gələcəkdə yalnız uğurlar gözləyir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Topçular təlimdə bacarıqlarını nümayiş etdirdilər



***Yüksək döyüş hazırlığına nail olmaq bütün hərbi kollektivlərin qarşısında duran başlıca vəzifədir. Sadə dillə desək, bölmə və əsgərlərə döyüşdə zəruri olan cəhətləri, müasir döyüşdə qarşıya qoyulan döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyi öyrətmək və şəxsi heyətdə yüksək mənəvi-döyüş keyfiyyətləri tərbiyə etmək komandanlığın başlıca vəzifəsidir. Bu sözlər bütün qoşun növlərinə, o cümlədən artilleriyaçılara da aiddir.***

"N" hərbi hissəsi cəbhə bölgəsindən kənarda yerləşir və bu səbəbdən bölmələrin qarşısına əsasən bir vəzifə qoyulub ki, o da döyüş hazırlığını daim yüksəltmək, istənilən zaman döyüş tapşırığı verilərsə, onu yerinə yetirməyə qadir olmaqdır.

Bu hərbi hissədə dəfələrlə olmuşam, burada zabitlər rotasiya qaydasında xidmət yerlərini dəyişdiyindən və yeni zabitlərin burada xidmətini davam etdirməsindən asılı olmayaraq bölmələrin peşə bacarığı daim diqqət mərkəzindədir.

- Şəxsi heyətin hazırlığında zabitlərin vətənpərvərliyindən çox şey asılıdır, - bizimlə söhbətində zabit Rasət Şirinov bildirdi. - Əgər onlar bu torpağın üzərində gəzməyin məsuliyyətini dərk edirlərsə, vəzifələrinə vicdanla yanaşmalıdırlar. Bir sözlə, öz ixtisaslarına həvəslə və çalışqanlıqla yiyələniblərsə və sinələrində doğma Azərbaycanımızı sevən ürək gəzdirirlərsə, təbii ki, mümkün çətinliklərə baxmayaraq, tabeliklərində xidmət edən döyüşçüləri də yorulmadan vətənpərvər ruhda tərbiyə edirlər.

Doğrudan da, əsgərin nəyə qadir olması ilk növbədə zabitlərin peşəkarlığından, fədakarlığından, bir sözlə, mənəvi keyfiyyətlərindən bilavasitə asılıdır. Yalnız zabiti savadlı, güclü, vətənpərvər olan Silahlı Qüvvələrin əsgəri döyüş meydanında qələbə qazanmağa qadirdir. Dinc dövrlərdə isə məşğələ və təlimlərdə döyüş bacarığını artırır, Vətənin müdafiəsinə həmişə hazır olur.

Artilleriyaçılar ilin əvvəlindən keçirilən məşğələlərdə qazandıqları bilik və vərdişləri bu gün birlikdə məşq edir, döyüş zamanı batareyanın görəcəyi işi heyət tərkiblərində icra edirdilər. Məşğələnin gedişi göstərdi ki, topçular öz vəzifələrinə məsuliyyətlə yanaşmağa və öhdələrinə düşən işi komandirlərinin öyrətdiyi qaydada yerinə yetirməyə çalışırlar.

- Təlim mərkəzində hərbi hissənin döyüş atışlı taktiki təlimi keçirilməlidir, - zabit Musa Musayev bildirdi. - Döyüş hazırlığı planına və günün nizam qaydalarına uyğun olaraq, səhər yerbəyeri keçirilərkən bölmə komandirlərinə və idarə heyətinə bununla əlaqədar tapşırıqlar verildi. Təlimə yuxarı komandanlıq rəhbərlik etdiyindən şəxsi heyət səylə çalışır ki, bu məşqlər zamanı özlərini bacarıqlı, yüksək döyüş qabiliyyətinə malik bölmələr kimi göstərə bilsin. Ona görə həm zabitlər, həm də əsgərlər özlərində ciddi məsuliyyət hiss edirlər. Həm də tədris dövründə keçirilmiş dərs və məşğələlərdə onlar ixtisas və taktiki hazırlıqlarını xeyli artırıblar. İnanırıq ki, təlim zamanı da öz bacarıqlarını ortaya qoya biləcəklər.



Təlim ərəfəsində batareya hazırlığı mərhələsi keçirilirdi. Təlimə buraxılmaları üçün batareyalar nəzarət məşğələsinə cəlb edilmişdi.

Eyni zamanda hərbi hissənin bütün şəxsi heyəti təlimə çıxışla əlaqədar komanda və arxa idarəetmə məntəqələrinin hazırlanması üçün əməlli-başlı çalışmışdı. Səhra şəraitində düşərgə toplanışı vaxtı səxsi heyətin necə yerləşməsi, eyni zamanda şəxsi heyətin dözümlülüyünü artırmaq üçün döyüş vəziyyətinə yaxınlaşdırılmış məşqlər topçuların təlim zamanı daha böyük bacarıq ortaya qoymasına imkan verəcəkdi.

Onu da qeyd edim ki, yazı çapa hazırlanarkən təlim artıq başa çatmışdı. Şəxsi heyət həyəcan siqnalı ilə qaldırılmış, avtomobil karvanları təyin edilmiş marşrut üzrə cəmləşmə rayonuna çıxarılmışdı. Hərbi hissənin yeni və müasir texnika ilə təchizatı belə bir təlim keçməyə və istənilən tapşırığı yerinə yetirməyə imkan verir.

Bölmələr təlim mərkəzində düşərgə salaraq yerləşmişdi. Müəyyən edilmiş qaydada orada artilleriya bölmələriinin yuxarı komandanlığın bilavasitə nəzarəti ilə döyüş atışlı taktiki təlimi keçirilmişdi. Təlim mərkəzində şəxsi heyət döyüş şəraitinə uyğun qaydada məşqlər keçmiş və bilavasitə hərbi əməliyyatlar zamanı artilleriyaçılara lazım olan keyfiyyətləri qazanmaq üçün praktik vərdişlərə yiyələnmişdilər.



Yekun olaraq bölmələrin birgə fəaliyyəti, qarşılıqlı əlaqənin təşkili və döyüş tapşırıqlarının topçular tərəfindən yerinə yetirilməsi yuxarı komandanlıq tərəfindən yüksək dəyərləndirilmiş, ən yaxşılar isə mükafatlandırılmışdı.

- Ümumiyyətlə, hərbi hissədə xidmət edən zabitlərin hazırlıq səviyyəsi komandanlığı qane edir, - zabit Musa Musayev bildirdi. - Biz bu il qarşımıza məqsəd qoymuşuq ki, əvvəlki illərə nisbətən artilleriya hərbi hissələri arasında ən yaxşılar sırasına çıxaq. Bunun üçün çalışırıq və inanırıq ki, bölmələrimizin şəyi öz bəhrəsini verəcək. Ötən il bizim hərbi hissə bu yarışda yalnız beşinci ola bilmişdi.

Təlimin gedişi zamanı zabitlərdən mayor Etibar Bağırovun, kapitan Elvin Namazovun, baş gizir Sərkər Sultanovun, müddətdən artıq xidmət edən hərbi qulluqçulardan Vaqif Rəhimovun, Bəxtiyar Bayramovun və Babək Quliyevin adları fərqlənənlər arasında qeyd edilib.

Artilleriyaçıların təlim zamanı nümayiş etdirdiyi bacarıq və hazırlıq səviyyəsi onu deməyə əsas verir ki, onlar qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirmək iqtidarındadırlar. Topçular ixtiyarlarında olan zəhmli silahın taktiki-texniki xüsusiyyətlərini yaxşı mənimsəyiblər və döyüş şəraitində ondan lazımınca istifadə etməyi bacarırlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Xəbərlər:
## hadisələr, faktlar

### Dünyanın ilk hava avtomobil sistemi İsraildə qurulur



Dünyanın ilk hava avtomobil sistemi İsrailin Tel-Əviv şəhərində qurulur. Bu sistem avtomobillərin havada quraşdırılmış relslər vasitəsilə hərəkətini nəzərdə tutur.

AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, sistemi "SkyTran" şirkəti tətbiq edir. Sınaq məqsədi daşıyan bu layihə uğurla yekunlaşarsa, şəhərdə hava relslərinin geniş şəbəkəsi qurulacaqdır. 2015-ci ilin sonuna qədər tamamlanması nəzərdə tutulan bu layihəyə əsasən əvvəlcə nəqliyyatın sıx olduğu ərazilərdə iki nəfərlik maşınlardan istifadə ediləcəkdir. Layihə çərçivəsində sərnişinlər "ağıllı telefon"lar vasitəsilə maşın sifariş edə, dayanacaqdan-dayanacağa gedə bilərlər.

Maşınlar saatda 70 kilometrə qədər sürətlə hərəkət edəcəkdir. Ticarət məqsədli nəqliyyat vasitələrində isə sürətin 240 kilometrədək çıxacağı bildirilir.

"SkyTran"ın Hindistan, ABŞ və digər ölkələrdə də oxşar layihələri vardır.

### Almaniyada ABŞ üçün işləmiş casus yaxalanmışdır




"Süddeutsche Zeitung" qəzetinin yazdığına görə, Almaniyanın BND kəşfiyyat xidmətinin əməkdaşı ABŞ-ın tapşırığı ilə onun Milli Təhlükəsizlik Agentliyinin AFR-dəki fəaliyyətinin təhqiqi üzrə bundestaq komitəsinin işi barədə məlumat toplamaqla məşğul olub. 31 yaşlı alman casusluq fəaliyyətində şübhəli bilinərək iyulun 2-də saxlanılmışdır.

DPA agentliyi xəbər verir ki, əvvəlcə BND əməkdaşının Rusiya kəşfiyyatı ilə əlaqə yaratmağa çalışdığı güman edilirdi, lakin dindirmələr zamanı o, Amerikanın xüsusi xidmət idarələrinin tapşırığı ilə məlumat topladığını etiraf etmişdir. Hazırda müstəntiqlər onun ifadələrinin dəqiqliyini yoxlayırlar.

### "Facebook" istifadəçilərdən xəbərsiz aparılan eksperimentə görə üzr istəmişdir




Dünyanın ən böyük sosial şəbəkəsi "Facebook"un əməliyyat direktoru Şeril Sandberq istifadəçilərdən xəbərsiz aparılan psixoloji eksperimentə görə üzr istəmişdir.

Ş.Sanberqin sözlərinə görə, eksperiment, şirkətin müxtəlif məhsullarının sınaqdan keçirilməsi istiqamətində aparılan tədqiqat işlərinin bir hissəsi olmuşdur. O, istifadəçilərə bu proses haqqında kifayət qədər zəruri informasiya verilmədiyini təəssüflə qeyd etmişdir.

Kornella və Kaliforniya universitetlərinin nümayəndələrinin PNAS jurnalında dərc olunan bu tədqiqat işi ictimai rezonans doğurmuşdur. Bəzi psixoloqlar anonim eksperimentlərin qəti əleyhinə olmuşlar.

"Facebook" rəhbərliyinin sözlərinə görə, tədqiqat zamanı istifadəçilərin fərdi maraqlarına toxunulmamışdır. Eksperiment verilən tapşırığa əsasən, şirkətinin servisini yoxlamaq və istifadəçilərin bu və ya digər kontentə münasibətini öyrənmək məqsədilə aparılmışdır.

### İraqda girov götürülmüş türkiyəli sürücülər azad olunmuşlar



"İraq Şam İslam Dövləti" adı ilə fəaliyyət göstərən terrorçu qrup tərəfindən iyunun 10-da girov götürülmüş 32 nəfər türkiyəli sürücü azad olunmuşdur.

Yerli KİV-in məlumatına görə, Türkiyə tərəfinə təhvil verilmiş girovların sağlamlıq vəziyyətləri yaxşıdır. Xatırladaq ki, Türkiyə baş konsulluğunun Mosuldakı 49 əməkdaşı hələ də girov saxlanılır. Ölkə rəsmilərinin məlumatına görə, girov diplomatların azad edilməsi üçün danışıqlar davam etdirilir.

### “İŞİD”-ə ağır zərbə



İraqın Əl-Ənbar rayonunda təhlükəsizlik qüvvələri ilə terror təşkilatı olan İraq Şam İslam Dövləti arasında qarşıdurmalarda 22 nəfərin öldüyü, 17 nəfərin isə yaralandığı bildirilib.

ANS PRESS-in məlumatına görə, Ənbar əməliyyat komandiri general-leytenant Rəşid Felih bildirib ki, Ənbara bağlı əl-Fəllucə mahalında ordu birlikləri ilə İŞİD arasında yaşanan qarşıdurmalarda 18 terrorçu öldürülüb, 11-i isə yaralanıb. Qeyd edək ki, "İŞİD"-ə aid silahlı qruplaşmalar Mosul, Tikrit, Baxibə və Telafer şəhərlərini, bundan başqa Ənbar, Əl-Qaim, Ravə, Aneh, Ratbə və Hadisə kəndlərini ələ keçirib. Qarşıdurmalar səbəbindən təxminən 1 milyon vətəndaş köç etmək məcburiyyətində qalıb. Ölkənin müxtəlif yerlərində "İŞİD" ilə təhlükəsizlik qüvvələri arasında toqquşmalar davam edir. İraq ordusu "İŞİD"-ə aid silahlı qruplaşmaların nəzarətində olan bölgələrə hava hücumları təşkil edir.

### Poroşenkodan "atəş" əmri



Ukrayna Prezidenti ölkənin şimalında keçirilən əməliyyatın davam etməsi barədə əmr verib. ANS PRESS-in məlumatına görə, bu barədə şənbə günü Ukrayna Prezidenti Petro Poroşenko bildirib. "Mən eyforiyadan çox kənardayam. Vəziyyət çox gərgindir. Terrorçular hazırda böyük şəhərlərdə məskən salıblar. Qabaqda heç də az olmayan sınaqlar var. Mənim əmrim - onları mühasirəyə almaq, Donetsk və Luqansk bölgələrinin təmizlənməsini təmin etmək olub", - deyə Poroşenko fikirlərini dilə gətirib. Bundan əlavə Prezident Slavyansk əhalisinə humanitar yardımın verilməsi barədə tapşırıqlar verib. Onun sözlərinə görə, artıq təyyarə və avtomobillər yardımlarla doldurularaq yola salınıb. Qeyd edək ki, şənbə günü Slavyansk şəhərinin Ukrayna qüvvələri tərəfindən geri qaytarılması barədə məlumat yayılıb. Hazırda şəhərdə Ukrayna zirehli texnikaları yerləşdirilib. Şəhərin idarəetmə binasında Ukrayna bayrağı dalğalanır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Murovdağ döyüşçülərinin şərəfinə ucaldılmış xatirə abidəsinin açılışı olmuşdur

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Silahlı Qüvvələrdə keçirilən hərbi vətənpərvərlik həftəsi çərçivəsində Murovdağ şəhidlərinin xatirəsinə ucaldılmış abidənin açılışı olmuşdur.***



Mərasimdə övladları Kəlbəcər və Murovdağ uğrunda döyüşlərdə həlak olmuş, qarlı və şaxtalı sərt aşırımlarda şəhidlik zirvəsinə ucalmış qəhrəman Vətən övladlarının valideynləri, müharibə veteranları, ictimaiyyət nümayəndələri və hərbçilər iştirak etmişlər.

Mərasimi Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani açaraq qeyd etmişdir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarından keçmiş oğul və qızlarımızın xatirəsini həmişə əziz tutur, onların xatirələrinin əbədiləşdirilməsinə böyük önəm verirdi. Prezident İlham Əliyev də bu ənənəni uğurla davam etdirir və şəhid ailələri dövlətimizin başçısının daim diqqət mərkəzindədir.

Müdafiə Nazirliyi rəhbərliyinin təşəbbüsü ilə şəhidlərin xatirə günlərinin geniş qeyd olunduğunu diqqətə çatdıran A.Qurbani demişdir ki, şəhidlər əsgəri ənənələrə uyğun olaraq hörmət və ehtiramla son mənzilə yola salınır, onların ailələrinin problemlərinin həlli üçün müvafiq tədbirlər həyata keçirilir. Müdafiə nazirinin əmri ilə Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyi ilə birgə Silahlı Qüvvələrdə keçiriləcək tədbirlərin təşkili üzrə işçi qrupu yaradılmış, tədbirlər planı təsdiq olunmuşdur. Murovdağ şəhidlərinin xatirə abidəsinin ucaldılmasında Əfqanıstan müharibəsi veteranları da yaxından iştirak etmişlər.

Hərbi orkestrin ifa etdiyi Dövlət himninin sədaları altında abidənin açılışını bildirən rəmzi lent kəsilmiş və xatirə lövhəsi vurulmuş qayanın üzərindən bəyaz örtük götürülmüşdür.

Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, birliyin fəallarından Əbülfət Hüseynov, Məhiyəddin Rüstəmov, Mirşamil Hadıyev, şəhidlərin ailə üzvləri, Qarabağ müharibəsində otuzdan çox doğmasını itirmiş kəlbəcərli Gülarə Hüseynova və başqaları çıxış edərək bu nəcib təşəbbüsə görə Müdafiə Nazirliyinin rəhbərliyinə və təşkilatçılara minnətdarlıqlarını bildirmişlər.

Şəhid anası demişdir ki, oğlu leytenant Elşən Böyükzadə 1994-cü ilin fevralında həlak olmuşdur. Onun cənazəsini Murov buzlarından qoparmaq mümkün olmamışdır. Bundan sonra Murovdağa gedən yolda ucaldılmış bu abidə onların üz tutacağı müqəddəs bir ziyarətgah olacaqdır.

Tədbirdə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının iştirakı ilə Murovdağ döyüşçülərinə və şəhidlərinə ithaf olunmuş "Ana, Murovdan gəlirəm" adlı ədəbi-bədii kompozisiya təqdim edilmişdir.

Hərbi vətənpərvərlik həftəsi davam edir.

**AzərTAc**



# Əsgərlər üçün keyfiyyətli yeməklər hazırlanır

## "N" hərbi hissəsində müasir əsgər yeməkxanası şəxsi heyətin istifadəsindədir

***Yaxşı yadımdadır, bu hərbi hissədə yenicə istifadəyə verilmiş əsgər yeməkxanasının açılışında mən də iştirak etmişdim. Burada yaradılmış yüksək şərait, müasir texniki avadanlıqlar diqqətimi cəlb etmişdi. Bu yaxınlarda yenə yolum həmin hərbi hissəyə düşdü və əsgər yeməkxanasına baş çəkmək qərarına gəldim. Elə o vaxtkı səliqə-sahmanın bir daha şahidi oldum. Hər tərəfdə təmizlikdir, nahara bir neçə saat qaldığı üçün mətbəxdə əsl işgüzarlıqdır. Səriştəli qadın aşpazlar hər gün olduğu kimi, bu dəfə də əsgərlərimiz üçün dadlı-ləzzətli nahar hazırlamaq üçün öz bacarıqlarını əsirgəmirlər. Ümumiyyətlə, bir məsələni qeyd edim ki, artıq ordu rəhbərliyinin tövsiyəsinə uyğun olaraq bəzi hərbi hissələrdə əsgərlərin məişəti ilə bağlı olan bir çox işlərə qadın qulluqçular cəlb ediliblər. Yaxşı deyiblər, hər yerdə qadın səliqəsi hiss edilməlidir. Əslində ordu mühitində də bəzi məişət qayğılarının qadınlara həvalə edilməsi təqdirəlayiq haldır. Qadınların hazırladığı keyfiyyətli xörəklərdən əsgərlərimiz daim razılıq edirlər.***

Budur, əsgər yeməkxanasında bizi baş gizir Namiq Orucov qarşılayaraq nahara hazırlıq işləri barədə məlumat verir. Mətbəxə daxil olan kimi xüsusi çalışqanlıq göstərən qadınların əhatəsinə düşürük. Ağ xalatda və əsl aşpaz görkəmində olan qadınların üzgözündən zəhmətə, əməyə bağlılıq hiss edirsən. Başa düşürsən ki, onların hər biri Vətənimizin gənc müdafiəçiləri üçün dadlı xörəklər hazırlamağı özlərinə borc bilirlər və bu məqsədlə əllərindən gələni əsirgəmirlər.

Özünü baş aşpaz kimi təqdim edən Südabə Cəfərova mətbəxdə çalışan qadınların işgüzarlığından söhbət açır.

- Bizim kollektivdə ayrı-seçkilik yoxdur, - deyir Südabə xanım. - Hamı çalışır ki, üzərinə düşən tapşırığı can-başla yerinə yetirsin. Hər birimiz məsuliyyətlə çalışırıq, çünki burada çətin döyüş tapşırıqlarını icra edən əsgərlərin hamısı bizim üçün doğma bir övladımız qədər əzizdir. Burada təlim keçən elə əsgərlər var ki, bəlkə də az bir vaxtda doğma evlərindən ayrılıblar. Biz çalışırıq ki, onlar hazırladığımız yeməkləri öz evlərində olduğu kimi, iştahla qəbul etsinlər. Burada mənimlə çiyin-çiyinə çalışan təcrübəli aşpazlardan Mənsurə Hüseynova, Xatirə Mahmudova, Gülyaz Hüseynova və başqalarının adlarını çəkmək istərdim. Əslində mətbəx işində çalışan qadınlarımza fərq qoymağa ehtiyac yoxdur. Çünki burada hər kəs öz evində olduğu kimi, işgüzarlıq göstərir, işinə tələbkarlıqla yanaşır.




Baş aşpaza görə, əsgər yeməkxanasının keyfiyyətli ərzaqla təmin edilməsi xörəklərin də dadına təsirini göstərməyə bilməz. "Müxtəlif çeşidli yeməklər hazırlamaq üçün keyfiyyətli ərzağın alınması əsas şərtlərdən biridir. Bu məqsədlə təzə və keyfiyyətli qida məhsulları alınır".

Artıq əsgərlərin nahar vaxtına az qalır, buna görə də masaların üzərinə lazımi ərzaq, çörək, salat və s. düzülür. Deməli, hər gün olduğu kimi, indi də əsgərlər iştahla nahar edəcəklər...

**Arif VAQİFOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

### Daşınan "Verba" zenit-raket komleksi

Rusiyanın hava-desant qoşunlarının tərkibinə dünyada analoqu olmayan avtomatlaşdırılmış idarəetmə sistemli "Verba" daşınan zenit-raket kompleksi daxil edilib. Bu sistem hava hədəflərini axtarmağa, onların xüsusiyyətlərini müəyyən etməyə və hədəflərin yerləşməsini nəzərə alaraq onları atıcı-zenitçilər və atəş vasitələri arasında bölüşdürməyə imkan verəcək.

### Yeni paraşütlər

Bu yaxınlarda Rusiyanın hava-desant qoşunları 17 min ədəd D-10 paraşütü alıb. Onuncu seriyadan olan paraşütlərin ilk partiyası Kamışev birləşməsinin hava-desant qoşunlarına təqdim edilib. Sonra isə paraşüt sistemləri Tula, Ulan-Udie və Ussuriya birləşmələrinə də təhvil verilib. Yeni paraşütlər köhnəlmiş D-6 paraşüt sistemlərini əvəz etmək üçün nəzərdə tutulub. Desant əməliyyatları zamanı onlardan istifadə çox sadə və təhlükəsizdir. Onlar aviasiyanın tərkibində döyüş və təlim tapşırıqlarını yerinə yetirəcəklər. Paraşütçülər 8 min metr hündürlükdə, saatda 400 kilometr olmaqla paraşütdən tullanma hərəkətlərini icra etməyə qadirdirlər. Paraşütün həcmi 100 kvadrat metrdir və onun xüsusi forması küləkli havada asanlıqla açılmağa imkan verir.

### AC-30 xilasetmə aparatı

Bu yaxınlarda Rusiya ordusu Yapon dənizində dərinsulu AC-30 xilasetmə aparatının uğurlu sınağını həyata keçirib. Sınaqda şəxsi heyət suyun 1000 metrlik dərinliyində planlaşdırılmış kompleks tədbirləri layiqincə yerinə yetirib. AC-30 aparatı orta təmirdən keçib və modernləşdirilib. Aparatın bütün köhnəlmiş cihazları yeni sistemlərlə əvəz olunub.

Dərinsulu xilasedici AC-30 aparatı ekstremal şəraitdə sualtı qayıqların heyətini xilas etmək və dərinlikdə müxtəlif tapşırıqların yerinə yetirilməsi üçün nəzərdə tutulub.

### T-72B-3 tankının sınağı keçirilib

Mərkəzi Hərbi dairənin heyəti "Uralvaqonzavod"un "Staratel" təlim mərkəzində səhra şəraitində T-72B-3 döyüş maşınının sınağını keçirib. Sınaq zamanı şəxsi heyət yeni döyüş maşınının texniki xüsusiyyətləri ilə tanış olub. T-72B-3 döyüş maşınında yeni bir sistem - rəqəmli idarəetmə sistemi quraşdırılıb. Zirehli texnika yeni nişanalma və atəşi idarəetmə sistemi, təkmilləşdirilmiş videogörüntü yaradan qurğu ilə də təchiz edilib. Maşını idarə etmək sürücü-mexaniklər üçün çox rahatdır. Bu texnikanın mühərriki 1130 at gücündədir.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**




## Yeni kitablar

# Ölməzliyə qovuşanlar

***"Son zəng, son döyüş, son təbəssüm" kitabı şair-publisist Nəcibə İlkinin qələmindən süzülən ilk vətənpərvərlik əsəri deyil. O, ötən əsrin doxsanıncı illərinin əvvəlində erməni qəsbkarlarına qarşı Qarabağda başlanmış döyüşlərin ağrı-acısını qələmə alan fədakar yazarlardan biridir.***

Nəcibə xanımın doğulub boya-başa çatdığı Tərtər rayonunda qanlı döyüşlər gedib. Hətta, düşmənin yağdırdığı top, qrad mərmilərindən ev-eşiyini müvəqqəti tərk etmək məcburiyyətində qalsa da, sonradan ordumuzun uğurlu hərbi əməliyyatları nəticəsində doğma yurduna dönüb. Həmin döyüş anları, çətin məqamlar Nəcibə xanımın gözü qarşısında baş verib. Onun həm poeziyasında, həm də publisistik yaradıcılığında vətənpərvərlik mühüm yer tutur.

Bu yaxınlarda "Şərq-Qərb" nəşriyyatında işıq üzü görmüş "Son zəng, son döyüş, son təbəssüm" kitabını yazıçının dəyərli əsərlərindən hesab etmək olar. Kitab uzun illər cəbhə bölgəsində xidmətini davam etdirərkən döyüş tapşırığını yerinə yetirən zaman mina partlayışı nəticəsində ağır yaralanan və aldığı qəlpə yaralarından dünyasını dəyişən şəhid zabitimiz İlqar Verdiyevin həyatı ilə bağlıdır. Kitabda əsasən döyüşçü dostlarının, doğmalarının və yaxınlarının İlqar haqqında xatirələri yer alıb. O, təkcə doğmalarının və yaxınlarının deyil, bütün Azərbaycan xalqının qəlbinə yol tapan şənid zabitlərdəndir. Kitabı oxuyan hər kəs biləcək ki, İlqar Vətəni canından, qanından artıq sevən bir zabit olub.

Yazıçı-jurnalist Nəcibə İlkinin ərsəyə gətirdiyi bu kitabla hər bir oxucu İlqarı yaxından tanıyacaq və həm də onun vətənpərvər, qayğıkeş bir insan olduğunu biləcəkdir.

Biz də Vətənimizin müdafiəsi zamanı canlarından keçən igid oğullarımızın xidmətini yaxından öyrənib onları oxuculara təqdim edən Nəcibə xanıma yeni yaradıcılıq uğurları arzulayırıq.

***P.S.*** *Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2014-cü il tarixli sərəncamı ilə Verdiyev İlqar Tapdıq oğlu "Hərbi xidmətlərə görə" medalına layiq görülüb.*

**Bəxtiyar MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## Dünya çempionatının yarımfinalçıları bəllidir




Futbol üzrə dünya çempionatının 1/ 4 final mərhələsi başa çatıb.

Fransa və Almaniya millilərinin qarşılaşması almanların minimal hesablı qələbəsi ilə bitib. Ev sahibi Braziliya ilə görüşdə Kolumbiya pentakampeonlarla bacarmayıb. Argentina və Belçika yığmalarının görüşündə isə bir erkən qol Argentinanı yarımfinala çıxarıb.

Hollandiya sonuncu qarşılaşmada Kosta Rikanı sınağa çəkib. Qalibi müəyyənləşdirmək üçün penaltilərə ehtiyac duyulub. Daha dəqiq oynayan Hollandiya millisi yarımfinala son vəsiqəyə sahib çıxıb.

Beləliklə, mundialın finalına vəsiqə uğrunda Almaniya Braziliya ilə, Hollandiya isə Argentina ilə mübarizə aparacaq.

## Azərbaycan dünya kubokunda ikinci oldu



Azərbaycanın yeniyetmə karateçiləri Xorvatiyada keçirilən dünya kubokunda uğurla çıxış ediblər. İdmançılarımız üç qızıl, bir gümüş və üç bürünc medal qazanıblar.

Roman Heydərov, Vidadi Xalıqov və Asiya Məlikova kata proqramında qızıl medala yiyələniblər. Fəridə Əliyeva yalnız finalda uduzmuş, Hümmət Baxşəliyev, Ülvi Qurbanov və Murad Hacızadə isə üçüncü olmuşlar.

Karateçilərimiz Xorvatiya idmançılarından sonra komanda hesabında ikinci nəticə göstəriblər.

## İdmançımız mass-resslinq üzrə dünya çempionatında ikinci oldu



Cüdo və sambo üzrə Azərbaycan çempionu olmuş Həzrət Məhəmmədov mass-ressling üzrə dünya çempionatında fəxri ikinci yeri tutub. Bu idman növü Yakutiyada milli idman növü kimi yaranıb və geniş populyarlıq qazanıb. 2003-cü ildən keçirilməyə başlanan yarışda Həzrət Məhəmmədov erməni idmançısı Voskan Gevorkyanla qarşılaşıb və ona heç bir şans verməyib. Yalnız finalda uduzan Həzrət dünya çempionatının gümüş medalına layiq görülüb.

## Cüdoçularımız Avropa birinciliyində iki qızıl medal qazandılar



Yunanıstanın paytaxtı Afinada cüdo üzrə kadetlər arasında Avropa birinciliyi keçirilib. AzərTAc xəbər verir ki, Azərbaycan millisi tatami üzərində iki qızıl və 1 gümüş medal qazanmışlar.

Birincilikdə həlledici görüşdə Rusiya cüdoçusu Ayib Bliyevdən üstün olan Natiq Qurbanov (55 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Hidayət Heydərov (66 kq) da həlledici görüşdə Rusiya cüdoçusu İsmayıl Çasiqovdan üstün olaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

Qeyd edək ki, cüdoçularımız komanda hesabında, Rusiya, Almaniya və Fransadan sonra dördüncü yeri tutmuşlar.

## İnter Tiraspola səfərdə qalib gəldi



UEFA Avropa Liqasında birinci təsnifat mərhələsinin ilk oyunları keçirilib. Azerisport.az xəbər verir ki, Azərbaycanı bu turnirdə təmsil edən klublardan "İnter" ilk sınağına çıxıb. Paytaxt klubu Moldova "Tiraspol"u ilə ilk oyunu səfərdə keçirib. Kaxaber Sxadadzenin komandası 3 cavabsız qol vurduqdan sonra arxayınlığa yol verərək Vətənə minimal hesablı üstünlüklə dönməli olub. İstənilən halda, "bankirlər" doğma meydanda cütün taleyini həll edə bilərlər.

Qeyd edək ki, "İnter" "Tiraspol"la cavab matçına bir həftə sonra - iyulun 10-da Bakıda çıxacaq.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki-üç dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 237
Nüsxə 4570